# NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİNİN

# Q Ə R A R I

**“Media haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununun layihəsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 96-cı maddəsinin I hissəsinə və Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 25-ci maddəsinin I hissəsinin 10-cu bəndinə əsasən Naxçıvan Muxtar Respublikasının Ali Məclisi **qərara alır:**

1. “Media haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununun layihəsi məqsədəmüvafiq hesab edilsin.

2. Qanun layihəsi baxılması üçün Azərbaycan Respublikasının Milli Məclisinə təqdim edilsin.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisi sədrinin müavini:** **ANAR İBRAHİMOV**

Naxçıvan şəhəri, 27 fevral 2024-cü il

№ 41-VI QR

**Layihə**

**“Media haqqında” Azərbaycan Respublikasının**
**Qanununda dəyişiklik edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 10-cu və 13-cü bəndlərini rəhbər tutaraq **qərara alır:**

“Media haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 20__, № __, maddə __) 59.2-ci maddəsində “və” sözü vergül işarəsi ilə əvəz edilsin və həmin maddəyə “Ali Məhkəməsi” sözlərindən sonra “və Naxçıvan Muxtar Respublikasının Ali Məclisi” sözləri əlavə edilsin.

**Azərbaycan Respublikasının Prezidenti**